Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi

ARTİ
Azərbaycan Respublikasının Təhsil İnstitutu

MÜTDA
Məktəbəqədər və ümumi təhsil üzrə dövlət agentliyi

birbank

RFO

RESPUBLİKA FƏNN OLİMPİADALARI

RAYON (ŞƏHƏR) MƏRHƏLƏSİ

**Ad** ________________________ **Soyad** ________________________

# 10-cu sinif

# TARİX

## Azərbaycan bölməsi

- İmtahan müddəti — **150 dəqiqədir**.
- Hər səhv cavab öz dəyərinin **1/4-ni aparır**.
- Sualların hər biri **5 balla** qiymətləndirilir.
- Kitabçada **20 sual** mövcuddur.
- Nəzarətçilərə cavab kağızları təqdim olunur.
- Rayon (şəhər) mərhələsinin nəticələrini **03.02.2026**-cı il tarixindən etibarən **portal.edu.az** platformasında (QR kodu skan edərək) şəxsi kabinetinizdən və təhsil aldığınız ümumtəhsil müəssisəsindən öyrənə bilərsiniz.

Kitabçamda texniki qüsur (çap olunmamış, aydın olmayan səhifə, natamam suallar) olmadığını və məlumatların (sinif, fənn, bölmə) mənim məlumatlarıma uyğunluq təşkil etdiyini təsdiq edirəm.

İmza: ________________

**1.** E.ə. I əsrin I yarısında Atropatena dövlətinin siyasi vəziyyətinə aiddir:

A) Selevkilərin parçalanması ilə müstəqilliyini bərpa etmişdi
B) Antoninin hücumları ərazisində böyük dağıntılara səbəb olmuşdu
C) Yerli hökmdarlar Roma canişinləri ilə əvəz olunmuşdu
D) Parfiya təhlükəsinə qarşı Roma ilə yaxınlaşmışdı
E) Romanın Şərqə yürüşləri nəticəsində asılı vəziyyətə düşmüşdü

**2.** XII əsrin I yarısında gürcü qoşunları tərəfindən ələ keçirilmiş şəhərləri müəyyən edin:




A) 1, 2, 3
B) 2, 3, 4
C) 3, 4, 5
D) 1, 2, 5
E) 1, 3, 4

**3.** Fəzl ibn Məhəmməd və Yaqub padşahın hakimiyyəti dövrü üçün oxşar xüsusiyyət:

A) Şirvanşahlar dövləti ilə qohumluq münasibətinin qurulması
B) Şərqi Gürcüstana yürüşlər təşkil edilməsi
C) Ərdəbil hakimliyinə qarşı mübarizə aparılması
D) Avropa dövlətləri ilə diplomatik əlaqələrin qurulması
E) Gəncə şəhərinin müdafiəsinin gücləndirilməsi

**4.** Eyler-Venn diaqramına əsasən uyğunluğu müəyyən edin:

İrəvan xanlığı          Lənkəran xanlığı




a. Qarabağ və Xoy xanlıqlarından asılı vəziyyətə düşməsi
b. Ağa Məhəmməd xan Qacara qarşı qurulan ittifaqa qoşulması
c. Nadir şahın dövründə daxili müstəqilliyə sahib olması
d. Əsasının Əfşar tayfası tərəfindən qoyulması
e. Gülüstan müqaviləsi ilə Rusiyanın tərkibinə qatılması

A) 1-a; 2-b, c; 3-d, e
B) 1-b, e; 2-d; 3-a
C) 1-d; 2-a, e; 3-b, c
D) 1-a, d; 2-c, e; 3-b
E) 1-c, d; 2-e; 3-b

**5.** Nadir xanın 1734-cü ildə Şamaxıya hücum etməkdə məqsədi:

A) Osmanlının himayəsi altında olan hakimliyə son qoymaq
B) Şah Sultan Hüseynə qarşı Şirvanda başlanan üsyanı yatırmaq
C) Rus qoşunlarını Xəzərsahili vilayətlərdən qovmaq
D) Peterburq müqaviləsinin şərtlərini bərpa etmək
E) Rus qoşunlarını Şamaxıdan çıxarmaq

**6.** Erməni işğalından azad olunan ərazilərdə istifadəyə verilən ilk infrastruktur layihəsidir:

A) Zəngilanda "Ağıllı kənd" layihəsi
B) Füzulidən Şuşaya çəkilən Zəfər yolu
C) Güləbird Su Elektrik Stansiyası
D) Şuşada şəhər mərkəzinin yenidən qurulması
E) Zəngilan beynəlxalq hava limanı

**7.** Bakı Şəhər Dumasına aid xüsusiyyətləri müəyyən edin:

1. 1878-ci il şəhər islahatına əsasən yaradılmışdı
2. XX əsrin əvvəllərində rəhbərlərindən biri Fətəli xan Xoyski idi
3. Fəaliyyətinə Bakı Soveti tərəfindən son qoyulmuşdu
4. Dumanın tərkibi Qafqaz canişini tərəfindən təsdiq edilirdi
5. Üzvləri yalnız qeyri-xristianlardan təşkil olunmalı idi

A) 1, 2, 5
B) 2, 3, 4
C) 3, 4, 5
D) 1, 2, 3
E) 1, 4, 5

**8.** Kollektivləşdirmə siyasətinin Azərbaycan SSR-də ləng həyata keçirilməsinin səbəblərindən deyil:

A) Kollektiv təsərrüfatçılıq Azərbaycan kəndlisinə yad idi
B) Kollektivləşdirmə tədbirləri yalnız dövlət kəndlilərinin təsərrüfatına şamil edilirdi
C) Kəndlilər torpağının və iş heyvanlarının ümumiləşdirilməsi ilə razılaşmaq istəmirdi
D) Zorakılıq və özbaşnalıq şəraitində həyata keçirilirdi
E) Dinə və milli adət-ənənələrlə aparılan mübarizə ilə eyni vaxtda həyata keçirilirdi

**9.** Hadisə-nəticə əlaqəsini müəyyən edin.

| | Hadisə | Nəticə |
|---|---|---|
| A) | Kursk döyüşünün baş verməsi | Sovet-alman cəbhəsində əsaslı dönüşün başlanması |
| B) | Alman ordusunun Moskva ətrafında məğlub olması | Sovet ordusunun "Qış müharibəsində" qələbə qazanması |
| C) | Əl-Əlameyn döyüşündə Yaponiyanın qələbə qazanması | ABŞ-ın İkinci dünya müharibəsinə qoşulması |
| D) | Miduey döyüşündə yaponların məğlub olması | Yaponiyanın Sakit okeanda hücum əməliyyatlarına başlaya bilməməsi |
| E) | Stalinqrad döyüşünün baş verməsi | Almanların Şərqi Avropadan qovulması |

**10.** Sasanilər dövləti və Uyğur xaqanlığı üçün oxşar cəhəti müəyyən edin:

A) Ağ Hun dövlətinə qarşı göytürklərlə ittifaq qurulması
B) Ərəb xilafətinin hücumları nəticəsində süquta uğramaları
C) Klassik feodalizm dövründə meydana gəlmələri
D) Ərazilərində Mani təliminin yayılması
E) VII əsrdə süquta uğramaları

**11.** VII əsrdə Bizansın sasanilərə qarşı apardığı müharibədə qələbə qazanmasına təsir göstərdi:

A) Türklərin hərbi gücündən istifadə olunması
B) Məzdəkilər hərəkatı nəticəsində Sasani dövlətinin zəifləməsi
C) Yustinianın islahatları nəticəsində Bizans ordusunun güclənməsi
D) Sasanilərin həm də ərəblərlə müharibə aparması
E) Sasani şahı Firuzun Bizansla müharibədə öldürülməsi

**12.** Xronoloji ardıcıllığı müəyyən edin:

1. Fransada konstitusiyalı monarxiya dövrünün başlanması
2. Stüartlar sülaləsinin hakimiyyətinin bərpa olunması
3. Yorktaun yaxınlığına ABŞ qoşunlarının qələbə qazanması
4. “Prut yürüşü”ndə rusların məğlub olması

A) 2, 4, 1, 3
B) 1, 3, 4, 2
C) 2, 4, 3, 1
D) 3, 2, 1, 4
E) 4, 1, 2, 3

**13.** Uyğunluğu müəyyən edin:

1. B. Franklin
2. Q. Leybnits
3. A. Levenhuk

a. Elektrik sahəsinə dair bir çox tədqiqatların müəllifi idi
b. İ. Nyutonla birliklə ali riyaziyyatın əsasını qoymuşdu
c. Cismi 150-300 dəfə böyüdən linza ixtira etmişdi

A) 1-a, 2-b, 3-c
B) 1-c, 2-a, 3-b
C) 1-b, 2-c, 3-a
D) 1-a, 2-c, 3-b
E) 1-b, 2-a, 3-c

**14.** XX əsrin əvvəllərində respublika idarəçiliyinin qurulduğu dövlətləri müəyyən edin:




A) 1, 2
B) 4, 5
C) 1, 5
D) 2, 3
E) 3, 4

**15.** Mətni oxuyun və kimə aid olduğunu müyyən edin:

“O, görkəmli şəxsiyyət idi. Hələ uşaqlıq vaxtından etibarən şəxsi şücaətləri, qətiyyəti və əməksevərliyi ilə seçilirdi….təsviri incəsənətə dəyər vermir, poeziyanı sevmədiyi üçün onu oxumağı vaxt itkisi hesab edirdi”.

A) Evrəngzib
B) Ağa Məhəmməd Qacar
C) Kərim xan Zənd
D) II Təhmasib
E) Nadir şah

**16.** Eyler-Venn diaqramına əsasən uyğunluğu müəyyən edin:

Şah Süleyman Şah Sultan Hüseyn




a. Rusiya dövləti ilə ticarət müqaviləsinin imzalanması
b. “Müqəddəs birlik” tərəfindən gələn ittifaq təklifinin rədd edilməsi
c. Rusiya və Osmanlının Azərbaycan torpaqlarını işğal etməsi
d. Əhalini siyahıyaalınmasının keçirilməsi
e. Əfqan üsyançıları tərəfindən hakimiyyətdən devrilməsi

A) 1-a; 2-b, c; 3-d, e
B) 1-b; 2-d, e; 3-a
C) 1-d; 2-a, e; 3-b, c
D) 1-a, e; 2-d; 3-b, c
E) 1-b, d; 2-e; 3-a

**17.** XIX əsrin 30-cu illərində Azərbaycanda Rusiyaya qarşı xalq üsyanlarının əsas səbəbi:

A) Yerli əhalinin orduya çağırılmaması
B) Mədəni ayrı-seçkilik və qəza məktəblərinin təşkili
C) İqtisadi istismar və ağır vergilər
D) Torpaq islahatlarının həyata keçirilməsi
E) Canişinlik sisteminin yaradılması

**18.** ABŞ-nin XIX yüzilliyin birinci yarısında Avropa müharibələrindən kənarda qalmasının birbaşa nəticəsi:

A) İqtisadi-siyasi inkişaf üçün əlverişli şəraitin yaranması
B) ABŞ sənayesinin Avropa dövlətlərindən asılı vəziyyətə düşməsi
C) ABŞ ərazisinin hərbi yolla parçalanması
D) ABŞ-də mütləq monarxiyanın bərqərar olması
E) Avropa dövlətlərinin ABŞ ərazisində müstəmləkələr yaratması

**19.** XIX əsrdə Böyük Britaniyanın "dünya emalatxanası" adlandırılmasının səbəbi:

A) Siyasi sabitlik səbəbi ilə
B) Sənaye istehsalında lider olduğu üçün
C) Geniş müstəmləkələrə sahib olduğu üçün
D) Zəngin monarxiya səbəbi ilə
E) Təhsilin inkişaf göstəricilərinə görə

**20.** Xronoloji ardıcıllığı müəyyən edin:

1. Yakobin diktaturasının qurulması
2. ABŞ-da “İstiqlaliyyət bəyannaməsi”nin qəbul edilməsi
3. İngiltərədə respublika idarəçiliyinin qurulması
4. Pyotrun Xəzərsahili vilayətlərə yürüşünün başlanması

A) 3, 2, 4, 1
B) 4, 3, 1, 2
C) 2, 1, 4, 3
D) 1, 2, 3, 4
E) 3, 4, 2, 1